Süleyman Həsən oğlu Əliyev 1961-ci il avqustun 3-də anadan olub. Ali məktəbi fərqlənmə diplomu ilə bitirib. 1987-1992-ci illərdə Xanlar Rayon Mədəniyyət Şöbəsinə tabe olan kitabxananın müdiri işləyib. İşinin öhdəsindən bacarıqla gəldiyi nəzərə alınaraq 1992-ci ildə vəzifəsi böyüdülüb - Samux Rayon Mədəniyyət Şöbəsinin müdiri. Burada da etimadı ləyaqətlə doğruldub. 1994-cü ildə Samux Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini vəzifəsinə irəli çəkilib. 2004-2006-cı illərdə rayon MKŞ-in direktoru olub. 2006-cı ilin iyunundan Samux Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

Düşünürük ki, bu təcrümeyi-haldа bir cəhət diqqətimizdən yayınmadı: Süleyman müəllim əvvəllər də rayon mədəniyyətinə rəhbərlik edib. Demək qazanılmış uğurlarda təcrübə öz sözünü deyir. Rayon icra hakimiyyəti başçısı Vilyam Hacıyevin mədəniyyətə bağlılığı, rayonun abadlaşdırılmasına xüsusi qayğı göstərməsi isə bu məsələdə daha önəmli yer tutur. Yaxın vaxtlarda icra hakimiyyəti başçısı ilə söhbət aparıb Samuxda görülən böyük abadlıq işlərindən ətraflı bəhs edəcəyimizi nəzərə alaraq burada fikrimizi yekunlaşdırır və ötən müddət ərzində şöbənin fəaliyyəti haqqında danışması üçün sözü Süleyman müəllimə veririk:

- Samux Rayon Mədəniyyət və Turizm Şöbəsinin kollektivi dövlətimizin mədəniyyət sahəsində qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsinə layiqincə əməl etməyə çalışır.

Şöbənin əsas vəzifəsi mədəniyyət müəssisələrimizin fəaliyyətini kökündən yaxşılaşdırmaqdan, keçirilən tədbirləri keyfiyyətcə zənginləşdirməkdən ibarətdir. Bütün bu vəzifələrin yerinə yetirilməsində rayon mədəniyyət və turizm şöbəsinin tabeliyində olan müəssisələr – rayon mədəniyyət evi, 12 kənd mədəniyyət evi, 14 klub, 32 kənd kitabxana filialı, uşaq kitabxanası, 3 uşaq musiqi məktəbi və Heydər Əliyev muzeyi müəyyən işlər görürlər.

Bu müəssisələrdə 400-ə yaxın işçi çalışır. Onların 71 nəfəri ali, 155 nəfəri orta ixtisas, 167 nəfəri isə orta təhsillidir.

2006-cı ilin tədbirlər planına rayon icra hakimiyyəti başçısının, respublika mədəniyyət və turizm nazirinin əmr və sərəncamlarına əsasən tarixi hadisələr, bayramlar və yubileylərlə bağlı geniş və maraqlı mədəni-kütləvi tədbirlər, ədəbi-bədii gecələr, görüşlər, kitab sərgiləri, oxucu konfransları, konsertlər keçirilmişdir.

Xalq şairləri S.Rüstəmin və S.Vurğunun 100 illik yubileyləri, eləcə də "Molla Nəsrəddin" jurnalının 100 illiyi münasibətilə bütün müəssisələrimizdə ədəbi-bədii xatirə gecələri və görüşlər keçirilmişdir. Rayon mədəniyyət evində mərkəzi kitabxana işçilərinin yaxından köməyi ilə qanlı 20 Yanvar, Xocalı faciəsi, 31 Mart - azərbaycanlıların soyqırımı günü geniş ictimaiyyətin iştirakı ilə yad edilmişdir.

Bahar bayramı - "Novruz", 9 May-alman faşizmi üzərində qələbənin və 28 May - Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasının növbəti ildönümləri ilə əlaqədar əlavə tədbirlər planı hazırlanmış və icrası təmin edilmişdir. Rayon mədəniyyət evində "Müstəqilliyimizi qoruyaq" devizi altında təşkil olunmuş şənliklərdə Azərbaycan Demokratik Cümhuriyyətinin yaranma tarixindən və şəraitindən, onun fəaliyyəti dövründən, Azərbaycan xalqına bəxş etdiyi azadlıqdan, dövlətçilikdən, ərazi quruculuğundan geniş söhbət açılmışdır.

1 iyun - Uşaqların Beynəlxalq Müdafiə günü ilə əlaqədar MKS-də və Heydər parkında, 15 iyun - Milli Qurtuluş günü ilə əlaqədar rayon mədəniyyət evində, 26 iyun - Azərbaycan Silahlı Qüvvələri günü münasibətilə "N" saylı hərbi hissələrdə maraqlı konsert proqramı ilə çıxışlar olmuşdur. 31 iyul - Sərhəd xidməti günü kollektivimiz Gürcüstan Respublikası ilə həmsərhəd hərbi sərhəd zastavasında olmuş, konsert proqramı ilə çıxış etmişdir.



# Etimadı doğrultmaq üçün



*...Son illər Samuxda nə qədər kadr dəyişikliyi aparılsa da mədəniyyətin inkişafı və təbliğinə heç bir təsiri olmurdu. Kimliyindən asılı olmayaraq təyin olunan kəs problem qarşısında duruş gətirə bilmir, bir müddət sonra başqası ilə əvəzlənməli olurdu. Yəqin ki, eyni vəziyyətlə Süleyman müəllimin üzləşəcəyinə də çoxları şübhə etmirdi. Amma xoşbəxtlikdən hər şey uğurlu alındı. Rayona yeni icra başçısının - Vilyam Hacıyevin təyinatı isə burada öz təsirini xüsusilə göstərdi. Bu haqda aşağıda danışacağıq. Hələlik isə müsahibimizi oxucularımızla yaxından tanış etməyi məqsədəuyğun bilirik.*

1 oktyabr – Ahıllar günü və 3 dekabr – Əlillər günü münasibətilə "Qoşqar" şadlıq sarayında rayon ağsaqqallarının və əlillərin şərəfinə ziyafət təşkil olunmuş və böyük konsert proqramı təqdim edilmişdir.

14 noyabr 2006-cı il tarixdə görkəmli xalçaçı-rəssam, alim-pedaqoq Lətif Kərimovun 100 illik yubileyi münasibətilə şöbədə kitab və foto-sərgilər təşkil olunmuş, alimin həyat və yaradıcılığından bəhs edən "Lətif Kərimov dühası" mövzusunda məruzə dinlənilmişdir.

Xüsusi istedada malik olan uşaqların yaradıcılıq potensialının inkişafı üzrə Dövlət proqramının həyata keçirilməsi ilə əlaqədar geniş tədbirlər planı hazırlanmış və onun ardıcıl həyata keçirilməsini təmin etməyə çalışmışıq. Belə ki, mədəniyyət və turizm nazirliyinin 22 mart 2006-cı il tarixli əmrinə əsasən rayonun uşaq musiqi məktəblərinin iştirakı ilə Uşaq muğam ifaçılarının III Respublika müsabiqəsinin rayonda I turu keçirilmiş, qaliblərdən 3 nəfəri Astara rayonunda keçirilmiş II turdan fəxri fərmanla geri dönmüşlər.

Bundan başqa nazirliyin 328 saylı, 21 iyul 2006-cı il tarixli əmrinə əsasən aşıq sənəti ifaçılarının III Respublika müsabiqəsinin rayonumuzda I turunu keçirmiş, turun 3 nəfər qalibi 4-8 oktyabr tarixlərində Şəmkir rayonunda II turda iştirak etmişlər. Onlardan 2 nəfəri fəxri fərmanla təltif olunmuşdur.

Hazırda musiqi məktəblərimizin kollektivləri xor kollektivlərinin V respublika, eyni zamanda simli, nəfəsli və zərb alətləri üzrə respublika müsabiqəsinə hazırlaşırlar.

5 oktyabr - Müəllim günü, 18 oktyabr - Milli müstəqillik günü, 12 noyabr - Konstitusiya günü, 17 noyabr - Milli Dirçəliş günü və 31 dekabr - Dünya azərbaycanlılarının həmrəyliyi günü və Yeni il şənlikləri ilə əlaqədar böyük bayram konsertləri təşkil edilmişdir.

Rayonumuzun mədəni həyatında kitabxanalarımızın da özünəməxsus yeri vardır. Rayon MKS-nə Respublika prezidentinin 20.000 nüsxəyə qədər kitab hədiyyəsi daxil olmuşdur. Bundan başqa kitabxana Respublika Gözdən Əlillər Cəmiyyətindən 100-ə yaxın müxtəlif mövzularda audio kasetlər almışdır. Həmin kasetlərə Azərbaycan və dünya ədəbi incilərindən nümunələr köçürülmüşdür.

Kitabxanaya həmçinin M.F.Axundov adına Milli Kitabxanadan müxtəlif mövzularda 91 nüsxə, F.Köçərli adına Respublika Uşaq Kitabxanasından isə 50 nüsxə kitab hədiyyə olunmuşdur.

2006-cı hesabat ilində MKS-nin ümumi kitab fondu 222.200 nüsxə təşkil etmişdir.

Ötən il rayon rəhbərliyinin təşəbbüsü və yaxından köməyi ilə mərkəzi rayon kitabxanasının və 3 musiqi məktəbinin təmirinə nail olduq.

Maddi-mənəvi irsin saxlanılması və inkişaf etdirilməsi məqsədilə mədəniyyət işçiləri yerlərdə tarixi abidələrin qorunması istiqamətində əməli iş aparırlar. Bu gün rayonumuzun ərazisində XVII əsrin sonlarına aid Hacallı kənd qəbiristanlığı, VI-VII əsrlərə aid Çobanabdallı kənd pir ocağı, XIX əsrin sonlarına aid Çobanabdallı kənd körpüsü, 1300-ə yaxın yaşı olan Kolayır kəndindəki Düldül çinarı və Füzuli kənd qəribistanlığı kimi tarixi abidələr vardır. İndiyə qədər dövlət qeydiyyatına alınmamış bu tarixi abidələrin rəsmi dövlət qeydiyyatına alınması xahişi ilə 21 iyun 2006-cı il tarixdə Mədəniyyət və Turizm Nazirliyinə müraciət edilmişdir.

Bu ilin yanvarından istismara verilən Heydər Əliyev xatirə muzeyi samuxluların və qonaqların ən əziz ziyarət ocağıdır. Muzeydə 10 nəfər əməkdaşımız çalışır, onlar Heydər Əliyev irsinin yeniyetmə və gənclərə elmi əsaslarla aşılanmasında lazımi iş aparırlar...

**E. HƏSƏNQIZI**